**Qarabəyli T.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.12-24**
**UOT 343.627**

# Uşaq istismarı və onun qarşısının alınması tədbirləri

**Xülasə:** Məqalə uşaq istismarının anlayışının, tarixinin, səbəb və nəticələrinin araşdırılmasını, həmçinin onun qarşısının alınması tədbirlərinin irəli sürülməsini mühüm bir məqsəd kimi qarşıya qoymuşdur.

Uşaq istismarının tarixini araşdırmaqla, müxtəlif dövrlərdə uşaqlara olan münasibət və yanaşmaların öyrənilməsi və müvafiq dövr üçün ümumi mənzərənin yaradılması mümkün olmuşdur. Məqalədə ən müxtəlif dövrlərdə və ən müxtəlif yerlərdə iqtisadi, sosial və dini-mənəvi xüsusiyyətlərdən irəli gələrək, uşaqlara cinsi münasibətin fərqli olduğu aşkara çıxır.

Uşaq hüquqları anlayışına bu günki baxış bucağından baxdıqda, Qədim Romada, Yunanıstanda, sonrakı dövrlərdə Avropada uşaq istismarına münasibət məqalədə araşdırılmışdır. “Pedofiliya” anlayışının yaranması, onun növləri və səbəbləri üzrə görkəmli alim Kraft-Ebbinqin araşdırmalarına toxunulmuşdur.

Müəllif “uşaq istismarı” anlayışının hüquqi, psixoloji və mənəvi aspektlərdən izah etməyə çalışmış və hər üç aspektdə bu anlayışın ortaq xüsusiyyətlərini vurğulamışdır.

Hüquqi aktlarda təsbit olunmuş uşaq istismarının növləri – uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası, eyni zamanda fiziki, emosional, mənəvi, psixoloji istismar anlayışlarını sosial-mənəvi müstəvidə araşdırmışdır.

Məqalənin problemləri ortaya qoymaq və anlayışları izah etdikdən sonra ikinci əsas vəzifəsi uşaq istismarı hallarının qarşısının alınması üçün tədbirlərin irəli sürülməsidir. Uşaq istismarının qarşısını almaq üçün tədbirlər məqalənin nəticə hissəsində verilmişdir.

Müəllifin “Uşaq istismarı və onun qarşısının alınması tədbirləri” mövzusuna müraciət etməsi mövzunun öz aktuallığını qoruyub saxlaması, elmi-texnoloji nailiyyətlər nəticəsində uşaq istismarının daha da genişlənməsi ilə bağlıdır.

Müasir dövrdə dünyanın üzləşdiyi və israrla mübarizə apardığı ciddi problemlərdən biri uşaqların istismarı ilə bağlıdır.

**Açar sözlər:** uşaq istismarı; pedofiliya; cinsi istismar; zorakılıq.

**Uşaq istismarına tarixi baxış.** Oksford Universitetinin Hüquq üzrə lüğətində “uşaq istismarı” barədə belə bir arayış verilir: “XIX əsrdən etibarən, uşaqlarla yanlış davranma valideyn-uşaq münasibətlərinə hüquqi müdaxiləni qanuniləşdirdi və valideynin hökmranlığını azaltmağa başladı. 1960-cı illərdə Amerika pediatrı C.H. Kemp tərəfindən “sınmış uşaq sindromu” tanındıqdan sonra “uşaq istismarı” amili məhkəmə və hüquq sistemi üçün əhəmiyyət qazanmağa başladı. Həmin vaxtdan psixiatrlar tərəfindən uşaq istismarının bir neçə müxtəlif növləri müəyyən olunmağa

♦ **Qarabəyli Tahirə Mustafa qızı** - Dənizkənarı Bulvar İdarəsi “Hüquq, insan resursları və sənədlərlə iş” şöbəsinin müdiri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı, Almaniyanın Köln Universitetinin və Berlin Humboldt Universitetinin təqaüdçü-tədqiqatçısı (Azərbaycan). E-mail: tgarabeyli@gmail.com

başladı – fiziki istismar, cinsi istismar, ritual istismar,[1] emosional və ya psixoloji istismar" [21, s. 118.].

Uşaq istismarı müasir texnologiyaların inkişafı nəticəsində genişlənmiş olsa da, hüquq elminə uşaqlara qarşı cinayətlər daha qədim zamanlardan məlumdur. Məsələn, qədim Babilistanda eramızdan əvvəl 1754-cü ildə tərtib olunduğu ehtimal edilən "Hammurapi qanunları"nın 14-cü maddəsində qeyd olunurdu: "Əgər kimsə (başqa) adamın azyaşlı uşağını oğurlayarsa, (onda) o edam edilməlidir [1, s. 317]. 153-cü maddənin məzmunu isə belədir: "Əgər şəxs öz qızını tanıyacaqsa, (onda) onu (atanı) yurdundan qovmaq lazımdır." [1, s. 331].

Bullouf da hesab edir ki, uşaqların böyüklər tərəfindən cinsi obyekt kimi davranılmasının uzun sənədləşmiş tarixi vardır [6, s. 449]. O bildirir ki, qədim Yunanıstanda 12-14 yaşlı yeniyetmə oğlanların 20 yaşlarında olan kişilərlə cinsi münasibətə daxil olması adi bir hal hesab olunurdu və bu, həmin oğlanların özlərinin 20 yaşlarına qədər davam edirdi. Daha sonra yaşca böyük olan kişilər 12-14 yaşlı qızlarla evlənir, artıq 20 yaşı keçmiş gənc kişilər isə dövrəni davam etdirərək, yeniyetmə oğlanlar axtarırdılar. Bir neçə əsr sonra Roma imperiyasında da uşaqlarla cinsi münasibət normal hal idi və qızların orta evlənmə yaşı 14 idi [6, s. 450]. De Mause iddia edir ki, ənənəvi hind və Çin cəmiyyətlərində institutlaşmış uşaq cinsi istismarı mövcud idi və bu təcrübə bəzi regionlarda öz aktuallığını saxlamaqdadır.

Qeyd etmək yerinə düşərdi ki, I Pyotrun 1714-cü il tarixli "Vərəsəliyin qaydası haqqında" Fərmanı ilə nikah yaşı, əvvəllər Stoqlavın[2] müəyənləşdirdiyi oğlanlar üçün 15 yaş və qızlar üçün 12 yaş həddi, müvafiq olaraq, 20 yaş və 17 yaş həddinə qaldırılmışdır [2, s. 102].

**Uşaq istismarının anlayışı.** Uşaqlara cinsi meyletmənin psixoloji pozğunluq kimi ilk formal konsepsiyası 1886-cı ildə alman-avstriyalı Krafft-Ebbinq tərəfindən elmə "pedofiliya" termininin gətirilməsinə qədər məlum deyildi. Krafft-Ebbinqə qədər uşaqların cinsi istismarı qeyri-münasib hesab olunduğu üçün, o, psixoloji şərtlərlə deyil, əxlaqi cəhətdən mühakimə edilirdi. Uşaqlara cinsi marağı olan şəxslər pozğun, alçaqniyyətli və iradəsiz hesab olunurdu. Krafft-Ebbinq psixiatr idi və psixologiyanın ayrıca elmi fənn kimi fəlsəfədən ayrılma prosesinin getdiyi zamanlarda fəaliyyət göstərirdi. Psixologiyadakı inkişaf 19-cu əsrdə insan münasibətlərinə anlayış göstərən pozitivist yanaşmanın getdikcə artan üstünlüyünün bir parçası idi. Beləliklə, Krafft-Ebbinq uşaq cinsi istismarına elmi əsasda izah axtarışında idi.

Kraft-Ebbinq bütün uşaq cinsi istismarçılarını pedofil hesab etmir və qeyri-psixopatoloji və psixopatoloji halları fərqləndirirdi. Qeyri-psixopatoloji uşaq cinsi istismarı "çatışmazlıq" idi və əxlaqi zəifliyin, başdan alınan xəsarətin, alkoqolizmin, sifilisin, epilepsiyanın və digər fiziki və psixoloji qeyri-sabitliyin nəticəsində yarana bilərdi. Psixopatoloji pedofillər isə uşaqlara qarşı onların şəxsiyyətini bütünlüklə zəhərləyən patoloji və preferensial cazibənin qurbanıdırlar. Bununla belə, Kraft-Ebbinq belə fərdlərin çox nadir olduğunu və özünün şəxsən 4 belə fərdi tanıdığını qeyd edirdi [19, s. 69-72].

Kraft-Ebbinqin həqiqi nosloji sistemini nəzərə alaraq, pedofiliya əqli pozğunluq kimi siyahıya alınmış və digər "parafil"lərlə - məsələn, fetişizm və transvestizm – ilə birlikdə Amerika Psixiatrlar Assosiasiyasının (2000) Psixi Pozğunluqlar üzrə Diaqnostik və Statistik Təlimatında

[1]Ritual istismar – "şeytani istismar da adlanır – son dövrlərdə yaranmış olan, uşaqların öldürüldüyü, qurban edildiyi, pornoqrafiya, yaxud fahişəliyə cəlb edildiyi 1980-ci illərdən etibarən yaranan zəngin və güclü ritual istismar təşkilatının bütün dünyada həyata keçirdiyi istismar növüdür.

[2] Stoqlav – 100 fəsillik kitab. 1551-ci il tarixli Rusiya kilsəsinin qərarlarının məcmusundan ibarət olub, kanon hüququnu, əsas etibarilə, məişət və əxlaq məsələlərini tənzimləyirdi.

(DSM-IV-TR) nəzərdə tutulmuşdur. Ciddi mübahisələrə baxmayaraq, DSM-V, ilk dəfə olaraq, hebefiliyanın yeni kateqoriyasını Təlimata daxil etməyi və bununla, yeniyetmələrə (15 yaşdan aşağı) cinsi marağı psixi pozğunluq kimi müəyyənləşdirməyi təklif edir. Göründüyü kimi, uşaqların cinsi istismarı problemi tibbləşdirilmiş və problemin həlli hüquq pozucularının psixopatoloji meyllərinə görə psixoterapevtik müalicə almasını tələb edir.

Uşaq istismarı ilə bağlı müddəalar hələ 1989-cu ildə qəbul edilmiş, tarixdə ən çox ratifikasiya edilən insan hüquqları üzrə beynəlxalq sənəd olan "Uşaq hüquqları haqqında" Konvensiyada nəzərdə tutulmuşdu. Uşaqların cinsi istismarı probleminin irəlidə haqqında daha ətraflı bəhs olunacaq müasir dövrün elmi-texniki nailiyyətləri və digər amillərlə əlaqədar dərinləşməsi səbəbindən "Uşaq hüquqları haqqında" Konvensiyanın Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair" II Fakultativ protokolu 2002-ci ildə qəbul edildi. Protokol uşaq hüquqları sahəsində üç mühüm problemi əhatə edir və həmin problemlərə Protokolda belə anlayışlar verilir:

- uşaq alveri - uşağın hər hansı bir şəxs yaxud şəxslər qrupu tərəfindən mükafat və ya hər hansı digər haqq müqabilində başqa bir şəxsə yaxud şəxslər qrupuna verilməsi vasitəsi olan hər hansı akt və ya əqd deməkdir;
- uşaq fahişəliyi - mükafat və ya digər haqq forması müqabilində uşaqdan seksual xarakterli fəaliyyətdə istifadə olunması deməkdir;
- uşaq pornoqrafiyası - real və ya modelləşdirilmiş aşkar cinsi hərəkətlər edən uşağın hər hansı vasitələrlə istənilən təsviri yaxud əsasən uşağın cinsi orqanlarının başlıca olaraq seksual məqsədlər üçün istənilən təsviri deməkdir.

Göründüyü kimi, adı çəkilən Protokol yalnız uşaqların cinsi istismarının üç növünü tənzimləyir. Əslində uşaq istismarı yalnız bu üç məfhumla, dolayısı ilə cinsi istismarla məhdudlaşmır və o daha geniş məfhum olmaqla, müxtəlif fiziki, mənəvi, psixoloji aspektlərə malikdir.

"Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyasına əsasən, "uşaq istismarı" dedikdə, cinsi zorakılıq, uşaq fahişəliyi, uşaq pornoqrafiyası, uşaqların pornoqrafik nümayişlərdə iştirakı, uşaqların yoldan çıxarılması, cinsi məqsədlərlə uşaqların təhrik edilməsi başa düşülür. Bu əməllərin hər biri ayrılıqda cinayət əməli sayılır, hər birinə anlayış verilərək, Konvensiyanın ayrıca maddəsi ilə tənzimlənir və iştirakçı dövlətlərin üzərinə qəsdən edilmiş bu cinayətlərin kriminallaşdırılması vəzifəsi qoyulur.

İstənilən hüquqi problemin nəzəri cəhətdən araşdırılması və təcrübi olaraq effektiv təkliflərin verilməsi üçün anlayışların dəqiqliyinə diqqət yetirmək lazımdır. Məlum olduğu kimi, "uşaq" dedikdə, "Uşaq hüquqları haqqında" Konvensiyaya və "Uşaq əməyinin ən pis formaları haqqında" BƏT Konvensiyasına görə, 18 yaşına çatmamış şəxs başa düşülür. Fahişəliyi leqallaşdırmış dövlətlər də 18 yaşına çatmamış istənilən şəxsin kommersiya məqsədli cinsi istismarını qadağan etməlidir. "Kommersiya məqsədli cinsi istismar" dediksə isə, uşaqların fahişəlik məqsədilə satılması, pornoqrafiya istehsalı, çılpaq rəqs etmə və ya bənzər aşkar cinsi hərəkətlər daxildir. Bu anlayışa uşağın həmin cinsi hərəkətləri etməsi müqabilində "müəyyən dəyərli bir şey" əldə etməsi də daxildir. Qısası, uşaq alveri kommersiya məqsədli cinsi istismar üçün 18 yaşına çatmamış şəxslərin cəlb olunması, daşınması, gizlədilməsi və satın alınması hərəkətlərini əhatə edir [17, s.756-57].

**Uşaq istismarının səbəbləri.** Uşaqların yaşı və hüquqi statusundan irəli gələn özünəməxsus xüsusiyyətlər, məsələn, əsas ehtiyaclar üçün böyüklərə arxalanmaları və onlardan asılı olmaları,

sosial və psixoloji yetkinliklərinin olmaması, hətta kiçik fiziki quruluşa malik olmaları belə uşaqların qurbana çevrilmələrinin başlıca izahı kimi nəzərdən keçirilməlidir [15, s. 2-25].

Araşdırmalar göstərir ki, istismar edilmiş azyaşlıların əksəriyyəti dəfələrlə və təkrar-təkrar istismara məruz qalır. Məsələn, aparılan araşdırmaların birində respondentlərin yalnız 5 faizi digər istismar növlərinə uğramadan yalnız bir formada istismar olunduqlarını bildirmişlər. Tədqiqatçılar hesab edirlər ki, uşaqların və yeniyetmələrin istismar edilməsi əksər hallarda "məcmu halında" baş verir: biganəlik və cinsi istismar; biganəlik və fiziki istismar; fiziki, cinsi və psixoloji istismar, Kobud davranış, cinsi istismar və təcavüz, məişət zorakılığı və uşaq istismarı və s. [4, s. 392-415]. Xüsusilə cinsi istismar olunan uşaqlar onun ən müxtəlif formalarında zorakılığa məruz qalırlar.

İnsanlar niyə uşaqlara təcavüz edirlər? Kriminologiya elminin görkəmli nümayəndələrindən biri Qotfredson kriminologiyada özünənəzarət nəzəriyyəsinin əsas müddəalarına aşağıdakıları aid edir:

(1) bütün fərdlər həzz almağa can atır və ağrıdan qaçırlar, bununla cinayət üçün sabit motiv hazırlayırlar;

(2) çəkindirici amillər olmadan fərdlər təhqiramiz əməllər törədə bilərlər;

(3) başqa fərdlərə və sosial bağlara bağlılıq əsas çəkindirici amillərdir [16, s. 27].

Bu özünənəzarət nəzəriyyəsi mədəniyyətlər, yaş hədləri, qruplar, cinayətlə bağlı davranışlar və dövrlər üzrə aparılmış bir çox araşdırmalarla təcrübi olaraq dəstəklənmişdir.

İrqi, cinsi və sinfi ayrı-seçkilikdən fərqli olaraq, yaş kateqoriyası ayrıseçkilik üçün səbəb hesab olunmur. Bununla belə bəzi alimlər hesab edir ki, digər üç kateqoriya ilə yanaşı, yaş da ayrı-seçkilik vahidi kimi qəbul edilməlidir. "Qadınların tarixi olaraq tabe edilməsi və sıxışdırılması kimi, uşaqlar da yalnız keçən iki əsrdən az vaxt ərzində şəxsiyyət qismində tanınmışlar, buna qədər onlar valideynlərin iradəsindən asılı olan müdafiəsiz əmlak idilər" [20, s. 187]. Uşaqlar sağ qalmaq üçün böyüklərdən fiziki və hüquqi olaraq asılıdırlar. Buna görə də hər iki cinsdən olan uşaqlar özlərinin asılı vəziyyəti səbəbindən müəyyən əməllərə məcbur edilirlər, lakin qızlar oğlanlara nisbətən daha əlverişsiz vəziyyətdə olmaqla yanaşı, daha sərt münasibətlərə məruz qalırlar. Qız uşaqlarının fahişəliyə cəlb olunmasını səciyyələndirən həyati çətinliklərin prototipik ardıcıllığı belə müəyyən olunur:

1) Ögey (bəzən bioloji) ata və ya başqa kişi qohum tərəfindən cinsi zorakılığa məruz qalma;
2) Zorakılıqdan qaçmaq üçün qızın evi tərk etməsi;
3) Küçədəki həyatını xilas etmək üçün qeyri-qanuni fəaliyyətlə məşğul olma;
4) Onu daha qanunsuz işlərə, məsələn, fahişəliyə cəlb edən şəxslərlə əlaqələrə daxil olma və;
5) Nəticə etibarilə, zorakılığa, istismara və digər alçaldıcı münasibətə dözə bilmək üçün narkotik vasitələrin və alkoqollu içkilərin asılısına çevrilmə [16, s. 34-38].

Uşaq istismarının əksər formaları gərginlikdən (onun növlərindən, məsələn, valideynlərin imtina etməsi, çox sərt və ya pozğun mühit, zorakılıq və biganəlikdən) irəli gəlir. Ümumi Gərginlik Nəzəriyyəsinə əsasən, gərginlik fərdlər tərəfindən bəyənilməyən hadisələr və hallar kimi müəyyən edilir. Bu hallara dəyərli bir məqsədə gedən yolları bağlamaq, hər hansı dəyərli bir şeyi faktik olaraq itirmək, yaxud itirmə hədəsi altında olmaq və s. daxildir. Bu nəzəriyyə, həmçinin mənfi emosiyaların mənfi hallarla əlaqələnərək hüquqpozmalara gətirib çıxardığını vurğulayır. Gərginliyin bəzi - xüsusilə ədalətsizlik kimi görülən, sosial bağları zəiflədən daha əhəmiyyətli növləri hüquqpozma ehtimalını artırır [3]. Bir çox araşdırmalar gərginlik və hüquqpozmalar arasında əlaqələri aşkarlayaraq, bu nəzəriyyənin müddəalarını dəstəkləmişdir [11, s. 71-89]. Gərginliyin uşaqların valideynlərinə, qəyyumlarına və ya himayəsində olduqları şəxslərə mənfi

təsirləri ilə əlaqədar aşkar edilmiş bu nəticələri dəstəkləyərək, bəzi alimlər bildirirlər ki, həmin şəxslər əksər hallarda fiziki və ya əqli xəstəlik, narkotik vasitələr və spirtli içkilərdən asılılıq, həbs həyatı, psixiatrik pozğunluqlar, sosial təcridolunma, məişət zorakılığı, boşanma və ailədaxili ziddiyyətlər səbəbindən zorakı və ya biganə olurlar. Məsələn, valideynlərin psixiatrik pozğunluqları ilə uşaqların fiziki və cinsi istismarı arasında münasibətləri araşdıran bir tədqiqata əsasən, valideynlərinə depressiya, maniya, yaxud şizofreniya diaqnozu qoyulmuş uşaqların zorakılığa uğraması ehtimalı 2-3 dəfə, valideynləri antisosial şəxsiyyət pozğunluğundan əziyyət çəkən uşaqların zorakılığa məruz qalması ehtimalı 6-7 dəfə yüksək olur [22, s. 143-151]. Beləliklə, uşaq zorakılığının baş verdiyi ailə konteksti uşaqların zorakılığa məruz qalmadığı ailələrə nisbətən daha təcrid olunmuş, möhkəmliyin olmadığı və daha qeyri-funksional olaraq səciyyələndirilə bilər.

Uşaqlıqda münasibətlərin qeyri-funksional nümunələrini görərək böyüyən uşaqlar yetkinlik yaşına çatdıqdan sonra da zorakı münasibətlərə məcbur edilə bilirlər. Boulbi bildirir ki, fərdlərin uşaqlıqda öz valideynləri və ya qəyyumları ilə başlıca münasibətləri onlarda münasibətlər prosesi üçün sabit şablon (nümunə) formalaşdırır [5].

Qeyd olunduğu kimi, uşaq istismarının əsas səbəblərindən biri biganəlikdir. Bunu uşaq istismarının "passiv" növü kimi – hərəkətsizik qismində - qiymətləndirmək olar. Uşağa qarşı biganəliyə emosional biganəlik, fiziki biganəlik və nəzarətdə biganəlik aid edilir. Baxmayaraq ki, biganəlik zorakılığa nisbətən daha az zərər vurur, bəzi tədqiqatçılar belə qənaətə gəliblər ki, uşaq ikən biganəliklə üzləşmək zorakılığa məruz qalmaqdan daha ağır olur. Onlar hesab edirlər ki, biganə davranılmış uşaq fiziki, yaxud cinsi zorakılığa məruz qalmış uşaqlardan daha çox dərketmə qüsurları və danışıqda ləngimələrlə üzləşirlər. Fiziki zorakılığa məruz qalmış uşaqlara nisbətən biganəliklə rastlaşmış uşaqlar sosial təcridolunmadan daha çox əziyyət çəkir və daha az ünsiyyətə daxil olurlar [16, s. 52]. Fiziki zorakılıq görmüş uşaqlar kimi, biganəliyin qurbanı olmuş uşaqlar da öz ehtiyacları üçün başqalarına etibar edə bilməyəcəklərini anlayırlar və buna görə özünə dəyərvermə kimi bir hissdən məhrum olurlar. Özlərinə dəyər vermədikləri üçün sevilmədiklərini, zorakılığa layiq olduqlarını və bunun qarşısını almaq gücündə olmadıqlarını düşünürlər. Anaları tərəfindən biganəlik görmüş uşaqlar arasında uşaq istismarına məruz qalma ehtimalı səkkiz dəfə artır [16, s. 52]. Ailələr zəruri sevgini, qorumanı və himayəni təmin edə bilmədikdə, uşaqlar bu resursları ailədən kənarda axtarmağa başlayır. Belə biganəlik sevgi arzusunda olan uşağın başqaları tərəfindən istismar edilməsi üçün şərait yaratmış olur. Cinsi istismarçılar tərəfindən qurbanların seçilməsi üzrə aparılmış araşdırmalar göstərir ki, "qurbanın müdafiəsizliyi onların qurban kimi seçilməsində mühüm amildir... ailə problemləri olan, nəzarət olunmayan, daim küçələrdə və ya köməyə möhtac uşaqlar.." [16, s. 52].

Uşaq istismarının başlıca növlərindən biri fiziki zorakılıqdır. Uşaqlara qarşı fiziki zorakılıq dedikdə, "uşağa vurulan istənilən qeyri-təsadüfi fiziki xəsarət" başa düşülür və uşağı vurmaq, yandırmaq və ya dişləmək də daxil olmaqla, onun fiziki inkişafını pozan istənilən hərəkəti əhatə edir [7]. Uşaqlar, demək olar ki, bütün hallarda məhz himayəsində olduqları şəxs tərəfindən fiziki zorakılığa məruz qalırlar. Böyüklərdən fərqli olaraq, uşaqlar daha kiçik, daha zəif və müdafiəsizdirlər. Azyaşlı uşaqlar, xüsusən 4 yaşdan aşağı uşaqlara qarşı fiziki zorakılıq ağır xəsarət, yaxud ölümlə nəticələnə bilər.

Uşağa qarşı fiziki zorakılığın fiziki və emosional əlamətləri fərqləndirilir. Fiziki əlamətlərə göyərmələr, üz, boğaz, sinə, kürək nahiyələrində cızılmalar, hər hansı obyekt (kəmər, kəndir və s.) formasında xəsarətlər, ovucların, ayaq pəncələrinin altının, kürəyin izaholunmaz yanıqları, xəsarətin necə baş verməsi haqqında məlumata uyğun gəlməyən sümük qırılmaları və çatlamaları, tibbi

yardımı ləngitmək və s. daxildir. Emosional əlamətlərə isə davranışda həddi aşan aqressivlik, yaxud utancaqlıq, evə qayıtmaqdan qorxmaq, valideynlərdən qorxmaq, başqa böyüklərdən qorxmaq və s. aiddir [7].

Uşaq istismarının ən ağır növlərindən biri – hazırda bəşəriyyətin ən ciddi problemlərindən olan uşaq ticarəti və uşaq fahişəliyinin başlıca səbəbkarı – cinsi istismardır. Uşaq cinsi istismarı mənfi niyyətli nəvazişdən tutmuş zorlamaya qədər səviyyələrə bölünən təmaslı istismardan və qeyri-münasib cinsi davranışlar sərgiləməyə, uşaq pornoqrafiyasına məcburetmə kimi qeyri-təmaslı istismardan ibarətdir. Aparılmış onlarla araşdırma göstərmişdir ki, uşaq cinsi istismarı ən müxtəlif ruhi pozğunluqların başlıca səbəbidir. Uşaq istismarından xilas olmuş uşaqlar arasında rast gəlinən ən ciddi psixi və fiziki pozğunluqlar qismində özünə dəyər verməmə, depressiya, intihara meyllik, spirtli içkilər və narkotik vasitələrdən asılılıq, qidalanma problemləri göstərilir. Qurbanın yaşı onun istismar nəticəsində aldığı fiziki və mənəvi zərər ilə tərs mütənasibdir; qurban nə qədər gəncdirsə, ona dəyən zərər o qədər ağırdır [16, s. 87-89]. Başqa araşdırmalar göstərir ki, yeniyetmə dövründə cinsi istismara və təcavüzə məruz qalma uşaqlıqda cinsi istismara məruz qalmaya nisbətən gələcəkdə cinsi zorakılığa təkrar-təkrar uğrama ehtimalını artırır. Bundan əlavə, yeniyetmələr, azyaşlılardan fərqli olaraq, cinsi zorakılığa məruz qaldıqları üçün özünü günahlandırma hissi keçirirlər [13, s. 17-32].

Uşaqların cinsi zorakılığa məruz qalması onların gələcəyini məhv edən ən əsas səbəblərdən biridir. Bu məhvetmə sadəcə uşağa bədən xəsarətləri vurmaqla və mənəvi pozğunluq yaratmaqla məhdudlaşmır. Cinsi istismarçılar əksər hallarda qurbanı dissosiasiya etmək – "şəxsiyyətsizləşdirmək" də demək olar – üçün, məsələn, onları həyəcanlandırmaq və ya sakitləşdirmək üçün müxtəlif narkotik vasitələrdən istifadə edirlər. İlk vaxtlar zorakılığın rahat həyata keçirilməsi üçün istifadə olunan bu vasitələr gələcəkdə həmin uşaqlarda asılılıq yaradır və təkrar istismara məruz qalan uşaqlar həmin vasitələrdən bu zorakılıqlara tab gətirə bilmək üçün istifadə edirlər.

Uşaq cinsi istismarı cinayətinin gizli təbiəti və qurbanları aşkar etmənin çətinliyi səbəbindən bununla bağlı məlumatlar çox azdır. Bununla belə, aparılan bir çox araşdırmalar uşaqların necə bu yola düşməsi barədə təsəvvür yaradır. Beləliklə, ailədə biganəlik və ya zorakılıqla yanaşı, uşaqların cinsi zorakılığa məruz qalmasının və fahişəliyə cəlb olunmasının əsas səbəblərinə cəmiyyətin ən aşağı təbəqələrinə mənsub olma, şəhər mühitində yaşama, yoxsulluq və qadın olmaq daxildir [12, s. 95-128].

"Uşaq alveri"nin anlayışına gəldikdə, burada ciddi dəqiqləşməyə ehtiyac vardır. Hüquqşünaslar arasında geniş yayılmış yanlış fikir bundan ibarətdir ki, uşaq alveri uşaqların qanunsuz olaraq beynəlxalq və dövlətlərarası sərhədlərdən keçirilməsini nəzərdə tutur. Müəyyən hallarda uşaq alveri ilə məşğul olan şəxslərin qanunun cəzasından qaçmaq üçün uşaqları müxtəlif ölkələrə qanunsuz keçirmələrinə rast gəlinsə də, azyaşlı qurbanların dövlət sərhədindən keçirilməsi uşaq alveri cinayətinin tövsif edilməsi üçün zəruri amil deyildir. Uşaq alverçisi heç yerini dəyişmədən də azyaşlı qurbanlarını dəfələrlə sata bilər [14].

İnsan alveri, gizli formada həyata keçirilməsi səbəbindən aşkarlanması və təhqiq edilməsi ən mürəkkəb olan cinayətlərdən biridir. Bənzərsiz texnoloji imkanlar erasında və bununla paralel inkişaf edən anonimlik şəraitində kommersiya məqsədli cinsi fəaliyyət sənayesində istismar olunan uşaqların sayı artmaqdadır. Minlərlə insanı insan ləyaqəti və şəxsi azadlıqlar kimi fundamental hüquqlardan məhrum edən insan alveri cinayətinin müdafiəsiz, fiziki və psixoloji cəhətdən zəif olan uşaqlara istiqamətlənməsi xüsusilə dözülməz haldır. Beynəlxalq Əmək Təşkilatının 2008-ci ildə apardığı hesablamalara görə, dünyada il ərzində 1.8 milyon uşaq kommersiya məqsədilə cinsi

fəaliyyət sənayesində istismar edilir [16, s.100-102]. BMT-nin 1995-ci il araşdırmalarına görə isə dünyada uşaq fahişəliyindən əldə olunan illik gəlir 5 milyard dollar həcmindədir. Ümumiyyətlə, aparılan araşdırmalar uşaq alverinə oğlanlardan daha çox qızların cəlb olunduğunu göstərir. Məcburi kommersiya məqsədli cinsi istismarın bütün qurbanlarının 98 faizi qadınlar, onların isə 40-50 faizi uşaqlardır [16, s.100-102]. Bununla yanaşı, kimsəsiz və ya evdən qaçmış gənc oğlanlar da qızlar kimi cinsi istismar üzrə risk qrupuna daxildirlər.

Uşaq alveri ilə məşğul olan, yəni uşaqları satan şəxslərlə yanaşı, uşaq alverinin "inkişafı" üçün azyaşlılarla cinsi münasibəti satın alan "alıcılar" və dolayısı ilə buna tələbat olmalıdır. Araşdırmalar göstərir ki, bu "alıcılar"ın əksəriyyəti kişilərdir, lakin müəyyən hallarda qadınlara da rast gəlinir [16].

Azyaşlıların insan alverində cinsi istismara məruz qalması nəticəsində onların üzləşdiyi mənfi nəticələr fiziki xəsarətlər, psixoloji zərbələr və sosial pozğunluqlar kimi kateqoriyalaşdırıla bilər. Sıx-sıx rast gəlinən tibbi problemlərə cinsi yolla keçən infeksiyalar, arzu olunmayan və yüksək riskli hamiləlik, döyülmə və zorlanmadan alınan fiziki xəsarətlər, az qida qəbulu və narkotik vasitələrdən asılılıq aid edilir. Müşahidə olunan psixoloji zərbələrə əqli pozğunluqların uzun bir siyahısı, məsələn, depressiya, narahatlıq, dissosiativ pozğunluqlar, alkoqol və narkotik vasitələrdən asılılıq, intihara meyletmə, posttravmatik stress pozğunluğu və s. daxildir. Özünü nəzərə çarpacaq dərəcədə aşağı qiymətləndirmə, günah və utanc hissi emosional nəticələrdir. Sosial pozğunluqlara isə insanlarla ünsiyyət və davranış problemlərini, həyat qabiliyyətinin çatışmazlığı, özünəqapanma və cəmiyyətdən uzaqlaşmanı əhatə edir [8].

**Uşaq istismarının qarşısının alınması tədbirləri.**Yuxarıda bəhs olunduğu kimi, ailədaxili gərginliklər qız uşaqlarının müdafiəsizcəsinə cinsi istismara məruz qalması ehtimalını artırır. Bu cinsi istismar isə uşaqla kobud davranmadan başlayaraq, onun fahişəlikdə istismar olunmasınadək gedib çıxır. Bununla əlaqədar olaraq, hesab edirik ki, uşaq alverinə qarşı strategiyalar yüksək gərginliyin olduğu ailələrə hədəflənərək qurulsa, daha effektiv nəticələr verər. Qəyyumluq və himayə orqanları, məktəblər, sosial xidmət orqanları belə ailələrlə işləməli, uşaqlara qarşı zorakılıq edilməməsi, bunun ailə və ümumilikdə cəmiyyət üçün necə ağır nəticələr verəcəyi ilə bağlı məlumatlandırmalı, zorakılığın cinayət olması və hər bir halda qanun qarşısında cavab verməli olmaları haqqında xəbərdar etməlidirlər. Hüquq tətbiqedici orqanlar və sosial xidmət orqanları tərəfindən yüksək bacarıqla və təcrübəyə əsaslanan müdaxilə gərgin ailələrdə böyüyən qız uşaqlarının cinsi istismara məruz qalmasının qarşısını ala bilər.

Bundan əlavə, ölkə ərazisində evdə və ya kənarda zorakılığa məruz qalan, evdən qaçan, müraciət etməyə heç kəsi olmayan uşaqlar üçün Təhlükəsiz Sığınacaqların yaradılması onların uşaq ticarətinə cəlb edilməsinin qarşısını ala bilər. Şəhərin və ya kəndin ən görünən yerlərində, məktəblərdə, kitabxanalarda, küçə monitorlarında və digər yerlərdə Təhlükəsiz Sığınacaqlarla bağlı məlumat verilə, onların yerləşdiyi ünvan göstərilə bilər ki, yardıma möhtac olan uşaqlar və yeniyetmələr onların himayədarı olduğunu – öz dövlətinin dəstəyini hiss etmiş olsunlar. Heç bir dövlət üçün onun vətəndaşından daha qiymətli məfhum ola bilməz. Dövlət hər bir vətəndaşının hüquqlarının təminatçısıdır və bu, onun konstitusion vəzifəsidir.

Haqqında danışılan sığınacaqlar bir sıra Avropa ölkələri və Amerikada şəbəkə halında mövcuddur. Bu ölkələrdə gənclərin zorakılıqlardan qorunması işində artıq universitetlər, məktəblər, ictimai nəqliyyat sistemləri bu şəbəkələrin bir hissəsinə çevrilmişlər.

Uşaq fahişəliyinin və istismarının qarşısını alma tədbirlərindən biri də "təqib etmək əvəzinə, müdafiə etmək"dir. Hazırda fahişəlik "ictimai mənəviyyat əleyhinə cinayət" hesab olunur və

cinayətkarcasına uşaq istismarının qurbanı olmuş qadınlar onları əslində qorumalı olan hüquq sistemi tərəfindən də təqib olunur. Hesab edirik ki, bu “yol”a düşmüş qadınlara milli ənənələrimizə söykənən aqressiyamız bir kənara qoyulmalı və hüquq qaydasına məxsus obyektivliklə məsələyə yanaşaraq, uşaqlıqdan istismar olunmuş gənc qadınların aşkarlandığı halda, cəzalandırılması deyil, dəstək göstərilməsi vacibdir.

Estes və Vaynerin qeyd etdiyi kimi, cinsi istismara məruz qalan uşaqların siması davamlı olaraq dəyişir, lakin sosio-psixoloji dinamika sabit qalır; qüdrətli istismarçı uşağı cinsi, iqtisadi və digər mənfəətlər üçün istismar edir [12, s. 95-128]. Buna görə də cəmiyyət və dövlət olaraq, “cinsi istismar” anlayışının xüsusilə uşaqlara toxunmaması üçün bütün vasitələrlə mübarizə aparmalıyıq.

**Biblioqrafiya**

1. Əkbərov R.A. Xarici ölkələrin dövlət və hüquq tarixi: dərslik. Bakı: Qanun, 2005. – 516 s.
2. Нечаева А.М. Россия и ее дети. – М.: ГРААЛЬ, 1996. - 239 с.
3. Agnew. General strain theory: Current status and directions for further research. In F.T. Cullen, J.P.Wıght and K.R.Blevins (Eds.), Advances in criminological theory, vol.15: Taking stock: The status of criminological theory. New Brunswick, NJ: Transaction Publishers, 2006.
4. Arata C.M., Langhinrichseb – Rohling J., Bowres D. And O’Brien N. (2007). Differential correlates of multi-type maltreatment among urban youth. Child abuse and Neglect, 31.
5. Bowlby J. Attachment and loss, vol.II, Separation: Anxiety and Anger. New York: Basic Books, 1973.
6. Bullough V.L. “Children and Adolescents as Sexual Beings: A Historical Overview.” Child and Adolescent Psychiatric Clinics of North America, 13, 2004.
7. Child Welfare Information Gateway, 2007. URL: https://kidsmatterinc.org/get-help/for-families/abuse-and-neglect/physical-abuse/. (müraciət tarixi: 25.01.2021).
8. Clawson H.J. and Grace L.G., (2007). Finding a path to recovery: Residential facilities for minor victims of domestic sex trafficking. Washington DC: Office of the Assistant Secretary for Planning and Evaluation, US Department of Human and Health Services. URL: http://aspe.hhs.gov/hsp/07/HumanTrafficking. (müraciət tarixi: 14.01.2021).
9. DeMause L. “The universality of incest”. The Journal of Psychohistory, 1991, no. 19 (2).
10. Early marriage. A harmful traditional practice. A statistical exploration. United Nations Children’s Fund (UNICEF) 3 UN Plaza New York, NY 10017, USA. ISBN: 92-806-3869-6. April 2005.
11. Ellis S. And Savage J. Strain, social support and persistent criminality. In J. Savage (Ed.), The development of persistent criminality. New York: Oxford University Press, 2009.
12. Estes J.R. and Weiner N.A The commercial sexual exploitation of children in the United States. In Cooper, S.W., R.J.Estes, A.P.Giardino, N.D.Kellogg and V.I.Vieth (Eds.) Medical, legal and social science aspects of child sexual exploitation: A comprehensive review of child pornoraphy, child prostitution, and Internet crimes against children. St.Louis, MO: GW Medical Publishing, 2005.
13. Farley, M. Preface: Prostitution, trafficking and traumatic stress. In M.Farley (Ed.), Prostitution, trafficking and traumatic stress, 2003.
14. Farr K. Sex Trafficking: The global market in women and children. New York: Worth Publishing, 2005.

15. Finkelhor D., Ormond H.A., Turner H.A. and Hamby S.L. The victimization of children and youth: A comprehensive, national survey. Child Maltreatment. 2005. No. 10 (1), pp. 2-25.

16. Joan A. Reid. A Girl's Path to Prostitution. Linking Caregiver Adversity to Child Susceptibility. LFB Scholarly PublishingLLC. EL Paso, 2012.

17. Kreston SInvestigation and prosecutionof the prostitution of children. In Cooper S.W., R.J. Estes, A.P. Giardino, N.D. Kellogg and V.I.Vieth (Eds.), Medical, legal and social science aspects of child sexual exploitation; A comprehensive review of child pornography, child prostitution and Internet crimes against children. St. Louis, MO: GW Medical Publishing, 2005.

18. Legal Mimimum Marriage Age; Past and Present. URL: http://muslim-marriage-guide.com/marriage-age.html (müraciət tarixi: 27.01.2021).

19. Richard von Kraft-Ebing. Psychopathia sexualis, Berlin: Neuauflage, Matthes und Seitz, 1997.

20. Shelman E.A. and Lazoritz S. The Mary Ellen Wilson case and the beginning of children's rights in th 19th century America. Jefferson, NC: McFarland, 2005.

21. The new Oxford companion to Law. Edted by Peter Cane, Joanne Conaghan. Oxford University Press, 2008.

22. Walsch C., MacMillan H. And Jamieson E. When is sexual abuse relevant to bulimic disorders? The validity of clinical judgements. European Eating Disorders Review, (2002). No. 1 (3), pp. 143-151.

**Garabeyli T.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.12-24**
**UDC 343.627**

## Exploitation of children and measures to prevent it

**Abstract**: The article aims to study the concept, history, causes and consequences of child abuse, as well as to suggest measures to prevent it.

By researching the history of child abuse, it has been possible to study attitudes and approaches to children in different periods and to create an overview for the relevant period. The article reveals the different attitudes towards children, based on economic, social, religious and spiritual characteristics at different times and in different places.

From today's point of view of the concept of children's rights, the article examines the attitude to child exploitation in ancient Rome, Greece, and later in Europe. The origins of the concept of "pedophilia", its types and causes are covered in the research of Kraft-Ebbing, a prominent scientist.

The author tried to explain the concept of "child exploitation" from the legal, psychological and moral aspects, and emphasized the common features of this concept in all three aspects, researched the types of child exploitation enshrined in legal acts - child trafficking, child

♦ **Garabeyli Tahira Mustafa** – head of the Department of "Law, HR and Work with Documents" of the Seaside Boulevard Administration, doctoral student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, holder of a fellowship of the University of Cologne and Humboldt University of Berlin, Germany (Azerbaijan). E-mail: tgarabeyli@gmail.com

prostitution and child pornography, as well as the concepts of physical, emotional, moral and psychological exploitation at the socio-moral level.

After identifying the problems and explaining the concepts, the second main task of the article is to take measures to prevent child abuse. Measures to prevent child abuse are given in the concluding part of the article.

The author's appeal to the topic "Child exploitation and measures to prevent it" is related to the fact that the topic remains relevant, and as a result of scientific and technological achievements, child exploitation is expanding.

**Keywords**: exploitation of children; pedophilia; sexual exploitation; violence.

## References

1. Akbarov R.A. *Khariji olkelerin dovlet ve huquq tarikhi:* derslik [Foreign countries state and law history: textbook]. Baku, Qanun Publ., 516 p.
2. Nechayeva A.M. *Rossia i eye deti* [Russia and its children]. Moscow, GRAAL Publ., 1996, 239 p.
3. Agnew. General strain theory: Current status and directions for further research. In F.T. Cullen, J.P.Wıght and K.R.Blevins (Eds.), Advances in criminological theory, vol.15: Taking stock: The status of criminological theory. New Brunswick, NJ: Transaction Publishers, 2006.
4. Arata C.M., Langhinrichseb – Rohling J., Bowres D. And O’Brien N. (2007). Differential correlates of multi-type maltreatment among urban youth. Child abuse and Neglect, 31.
5. Bowlby J. Attachment and loss, vol.II, Separation: Anxiety and Anger. New York: Basic Books, 1973.
6. Bullough V.L. “Children and Adolescents as Sexual Beings: A Historical Overview.” Child and Adolescent Psychiatric Clinics of North America, 13, 2004.
7. Child Welfare Information Gateway, 2007. Available at: https://kidsmatterinc.org/get-help/for-families/abuse-and-neglect/physical-abuse/. (accessed 25.01.2021)
8. Clawson H.J. and Grace L.G. Finding a path to recovery: Residential facilities for minor victims of domestic sex trafficking. Washington DC: Office of the Assistant Secretary for Planning and Evaluation, US Department of Human and Health Services. 2007. Available at: http://aspe.hhs.gov/hsp/07/HumanTrafficking. (accessed 14.01.2021)
9. DeMause L. “The universality of incest”. The Journal of Psychohistory, 1991, no. 19 (2).
10. Early marriage. A harmful traditional practice. A statistical exploration. United Nations Children’s Fund (UNICEF) 3 UN Plaza New York, NY 10017, USA. ISBN: 92-806-3869-6. April 2005.
11. Ellis S. And Savage J. Strain, social support and persistent criminality. In J. Savage (Ed.), The development of persistent criminality. New York: Oxford University Press, 2009.
12. Estes J.R. and Weiner N.A The commercial sexual exploitation of children in the United States. In Cooper, S.W., R.J.Estes, A.P.Giardino, N.D.Kellogg and V.I.Vieth (Eds.) Medical, legal and social science aspects of child sexual exploitation: A comprehensive review of child pornoraphy, child prostitution, and Internet crimes against children. St.Louis, MO: GW Medical Publishing, 2005.
13. Farley, M. Preface: Prostitution, trafficking and traumatic stress. In M.Farley (Ed.), Prostitution, trafficking and traumatic stress, 2003.

14. Farr K. Sex Trafficking: The global market in women and children. New York: Worth Publishing, 2005.

15. Finkelhor D., Ormond H.A., Turner H.A. and Hamby S.L. The victimization of children and youth: A comprehensive, national survey. Child Maltreatment. 2005. No. 10 (1), pp. 2-25.

16. Joan A. Reid. A Girl’s Path to Prostitution. Linking Caregiver Adversity to Child Susceptibility. LFB Scholarly PublishingLLC. EL Paso, 2012.

17. Kreston SInvestigation and prosecutionof the prostitution of children. In Cooper S.W., R.J. Estes, A.P. Giardino, N.D. Kellogg and V.I.Vieth (Eds.), Medical, legal and social science aspects of child sexual exploitation; A comprehensive review of child pornography, child prostitution and Internet crimes against children. St. Louis, MO: GW Medical Publishing, 2005.

18. Legal Mimimum Marriage Age; Past and Present. Available at: http://muslim-marriage-guide.com/marriage-age.html (accessed 27.01.2021)

19. Richard von Kraft-Ebing. Psychopathia sexualis, Berlin: Neuauflage, Matthes und Seitz, 1997.

20. Shelman E.A. and Lazoritz S. The Mary Ellen Wilson case and the beginning of children’s rights in th 19th century America. Jefferson, NC: McFarland, 2005.

21. The new Oxford companion to Law. Edted by Peter Cane, Joanne Conaghan. Oxford University Press, 2008.

22. Walsch C., MacMillan H. And Jamieson E. When is sexual abuse relevant to bulimic disorders? The validity of clinical judgements. European Eating Disorders Review, (2002). No. 1 (3), pp. 143-151.

**Гарабейли Т.М.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.12-24**
**УДК 343.627**

## Эксплуатация детей и меры по ее предотвращению

**Аннотация**: Цель статьи - изучить концепцию, историю, причины и последствия жестокого обращения с детьми, а также предложить меры по его предотвращению.

Изучая историю жестокого обращения с детьми, стало возможным изучить отношение и подходы к детям в разные периоды и составить обзор за соответствующий период. В статье показано различное отношение к детям, основанное на экономических, социальных, религиозных и духовных особенностях в разное время и в разных местах.

С сегодняшней точки зрения концепции прав детей в статье исследуется отношение к эксплуатации детей в Древнем Риме, Греции, а затем и в Европе. Истоки понятия «педофилия», ее виды и причины раскрыты в исследованиях известного ученого Крафт-Эббинга.

Автор попытался объяснить понятие «эксплуатация детей» с юридического, психологического и морального аспектов, и подчеркнул общие черты этого понятия во всех трех

[♦] **Гарабейли Тахира Мустафа кызы** – зав. отделом «Права, кадров и работы с документами» Управления Приморского бульвара, докторант Академии государственного управления при Президенте Азербайджанской Республики, исследователь-стипендиат Кельнского университета и Берлинского университета им. Гумбольтда, Германия (Азербайджан). E-mail: tgarabeyli@gmail.com

аспектах, исследовал виды эксплуатации детей, закрепленные в правовых актах - торговля детьми, детская проституция и детской порнографии, а также понятия физической, эмоциональной, моральной и психологической эксплуатации на социально-нравственного уровня.

После выявления проблем и объяснения концепций вторая основная задача статьи - принять меры по предотвращению жестокого обращения с детьми. Меры по предотвращению жестокого обращения с детьми изложены в заключительной части статьи.

Обращение автора к теме «Эксплуатация детей и меры по ее предотвращению» связано с тем, что тема остается актуальной, а в результате достижений науки и техники эксплуатация детей расширяется.

**Ключевые слова**: эксплуатация детей; педофилия; сексуальная эксплуатация; насилие.

## Библиография

1. Акберов Р.А. История государства и права иностранных государств: учебник. – Баку: Ганун, 2005. – 516 с. (на азерб яз.)
2. Нечаева А.М. Россия и ее дети. – М.: ГРААЛЬ, 1996. - 239 с.
3. Agnew. General strain theory: Current status and directions for further research. In F.T. Cullen, J.P.Wıght and K.R.Blevins (Eds.), Advances in criminological theory, vol.15: Taking stock: The status of criminological theory. New Brunswick, NJ: Transaction Publishers, 2006.
4. Arata C.M., Langhinrichseb – Rohling J., Bowres D. And O’Brien N. (2007). Differential correlates of multi-type maltreatment among urban youth. Child abuse and Neglect, 31.
5. Bowlby J. Attachment and loss, vol.II, Separation: Anxiety and Anger. New York: Basic Books, 1973.
6. Bullough V.L. “Children and Adolescents as Sexual Beings: A Historical Overview.” Child and Adolescent Psychiatric Clinics of North America, 13, 2004.
7. Child Welfare Information Gateway, 2007. URL: https://kidsmatterinc.org/get-help/for-families/abuse-and-neglect/physical-abuse/. (дата обращения: 25.01.2021)
8. Clawson H.J. and Grace L.G. Finding a path to recovery: Residential facilities for minor victims of domestic sex trafficking. Washington DC: Office of the Assistant Secretary for Planning and Evaluation, US Department of Human and Health Services. 2007. URL: http://aspe.hhs.gov/hsp/07/HumanTrafficking. (дата обращения: 14.01.2021)
9. DeMause L. “The universality of incest”. The Journal of Psychohistory, 1991, no. 19 (2).
10. Early marriage. A harmful traditional practice. A statistical exploration. United Nations Children’s Fund (UNICEF) 3 UN Plaza New York, NY 10017, USA. ISBN: 92-806-3869-6. April 2005.
11. Ellis S. And Savage J. Strain, social support and persistent criminality. In J. Savage (Ed.), The development of persistent criminality. New York: Oxford University Press, 2009.
12. Estes J.R. and Weiner N.A The commercial sexual exploitation of children in the United States. In Cooper, S.W., R.J.Estes, A.P.Giardino, N.D.Kellogg and V.I.Vieth (Eds.) Medical, legal and social science aspects of child sexual exploitation: A comprehensive review of child pornoraphy, child prostitution, and Internet crimes against children. St.Louis, MO: GW Medical Publishing, 2005.
13. Farley, M. Preface: Prostitution, trafficking and traumatic stress. In M.Farley (Ed.), Prostitution, trafficking and traumatic stress, 2003.

14. Farr K. Sex Trafficking: The global market in women and children. New York: Worth Publishing, 2005.

15. Finkelhor D., Ormond H.A., Turner H.A. and Hamby S.L. The victimization of children and youth: A comprehensive, national survey. Child Maltreatment. 2005. No. 10 (1), pp. 2-25.

16. Joan A. Reid. A Girl’s Path to Prostitution. Linking Caregiver Adversity to Child Susceptibility. LFB Scholarly PublishingLLC. EL Paso, 2012.

17. Kreston SInvestigation and prosecutionof the prostitution of children. In Cooper S.W., R.J. Estes, A.P. Giardino, N.D. Kellogg and V.I.Vieth (Eds.), Medical, legal and social science aspects of child sexual exploitation; A comprehensive review of child pornography, child prostitution and Internet crimes against children. St. Louis, MO: GW Medical Publishing, 2005.

18. Legal Mimimum Marriage Age; Past and Present. URL: http://muslim-marriage-guide.com/marriage-age.html (дата обращения: 27.01.2021)

19. Richard von Kraft-Ebing. Psychopathia sexualis, Berlin: Neuauflage, Matthes und Seitz, 1997.

20. Shelman E.A. and Lazoritz S. The Mary Ellen Wilson case and the beginning of children’s rights in th 19th century America. Jefferson, NC: McFarland, 2005.

21. The new Oxford companion to Law. Edted by Peter Cane, Joanne Conaghan. Oxford University Press, 2008.

22. Walsch C., MacMillan H. And Jamieson E. When is sexual abuse relevant to bulimic disorders? The validity of clinical judgements. European Eating Disorders Review, (2002). No. 1 (3), pp. 143-151.